*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (2) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:20.01.2024*
*Kabul tarihi |Accepted:20.04.2025*
*Yayın tarihi |Published:25.04.2025*

**Hicran Zeynalova**

***https://orcid.org/0000-0002-0783-2315***
*Teacher, PhD, Department of Librarianship, Baku State University, Azerbaijan, hicran.zeynalova.77@mail.ru*

**Nahidə Mikayilova**

***https://orcid.org/0009-0003-5658-9125***
*Teacher, Şirvan State Economic and Humanitarian College, Azerbaijan, Nahida.mikayilova.76@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Zeynalova, H. & Mikayilova, N. (2025). Azərbaycanda Kitabxana İnformasiya Fəaliyyətinə Yeni Texnologiyaların Tətbiqi və İnformasiya Mühəndisliyi. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (2), 525-532.

# Azərbaycanda Kitabxana İnformasiya Fəaliyyətinə Yeni Texnologiyaların Tətbiqi və İnformasiya Mühəndisliyi

***Öz***

*Azərbaycanda kitabxana-informasiya fəaliyyətinin elmi əsaslarla öyrənilməsi və tədrisi XX əsrin əvvəllərindən başlanır və 1947-ci ildə Bakı Dövlət Universitetində ali təhsilli mütəxəssislərin hazırlanması ilə daha da genişlənir. Ənənəvi kitabxana-informasiya fəaliyyətinə yeni və proqressiv metodların tətbiqi işi Azərbaycanda XX əsrin 60-cı illərinin ortalarından başlanır və Sovet kitabxanaşünaslıq çərçivəsində çox da böyük uğur qazanmır. Müstəqilliyin bərpa olunması ilə Azərbaycanda bir çox sahələrdə yeniliklərin tətbiqi müşahidə olunur, eləcə də kitabxana-informasiya xidmətinin təşkilində paradiqmalar dəyişdirilir.İnformasiya təminatı sahəsində dünya təcrübəsinin öyrənilməsi, təcrübənin qiymətləndirilməsi və tətbiqi sahələrində yeni metodikalar hazırlanır. İnformasiya mühəndisliyi konsepsiyasının hazırlanması və kitabxana-informasiya fəaliyyətində onun tətbiqi məsələləri də Azərbaycan alimlərinin elmi əsərlərində öz əksini tapır. Məqalədə respublikanın kitabxana-informasiya fəaliyyətində elmi, nəzəri və təcrübi problemlərin öyrənilməsi istiqamətində informasiya mühəndisliyi konsepsiyasının əhəmiyyəti və*

BY NC
Creative Commons Licence

*perespektivləri öyrənilir. Tədqiqatçı və kitabxanaşünas alimlərin bu istiqamətdə məqalələri, dərslik və monoqrafiyaları təhlil edilir. Tədqiqatçıların irəli sürdüyü yeni konsepsiya, bu istiqamətdə yazılmış məqalələr, konfrans çıxışları və elmi monoqrafiyalar təhlil olunaraq informasiya-sənəd menecmenti fəaliyyəti sahəsində mütəxəssislərin kadr hazırlığı sahəsində əhəmiyyətli rolu qeyd edir.*

***Açar sözlər:*** *İnformasiya mühəndisliyi, dosent P.Kazimi, elmi məktəb, Azərbaycan kitabxanaları, informasiya texnologiyaları*

# Application of New Technologies and Information Engineering in Library Information Activities in Azerbaijan

## Abstract

*The scientific study and teaching of library and information activities in Azerbaijan began in the early 20th century and was further expanded in 1947 with the training of highly trained specialists at Baku State University. The application of new and progressive methods to traditional library and information activities began in Azerbaijan in the mid-1960s and did not achieve much success within the framework of Soviet librarianship. With the restoration of independence in Azerbaijan, innovations are being made in many areas and paradigms are changing in the organisation of library and information services. New methodologies are being developed in the field of studying world experience in the field of information provision, evaluation and application of experience. The development of the concept of information engineering and its application in library and information activities is reflected in the scientific work of Azerbaijani scientists. The article examines the importance and perspectives of the concept of information engineering in the study of scientific, theoretical and practical problems in the library and information activities of the republic. Articles, textbooks and monographs of researchers and librarians working in this field are analysed. By analysing the new concept introduced by researchers, articles, conference speeches, scientific monographs written in this direction, the important role of specialists in the field of information and document management activities in personnel training is pointed out.*

***Keywords:*** *Information engineering, associate professor P. Kazimi, school of science, Azerbaijan libraries, information technologies*

## Giriş

Azərbaycan kitabxanalarında yeni, informasiyanın emalı texnologiyaları 1960-cı illərin ortalarına təsadüf edir. Respublika elmi-texniki kitabxanasında və Elmlər Akademiyasının Mərkəzi kitabxanasında "məlumatın seçilmiş paylanması" layihəsi öyrənilir, tətbiq edilir və nəticələri öyrənilir (Kazimi & Gurbanov, 2022). Sovet Hakimiyyətinin dövlət sifarişi olaraq Moskva mütəxəssislərinin irəli sürdüyü layihə əsasında tətbiq olunan bu metod geniş vüsət almır.

1990-cı illər postsovet respublikalarında mürəkkəb, ziddiyyətli illər hesab edilir. Kitabxanalardakı nomenklatur ədəbiyyat dünya ədəbiyyatı ilə əvəz edilir, senzura aradan götürüldükcə oxucuların ixtiyarına demək olar ki, hər gün yeni nümunələr təqdim olunurdu. Bu dövrdə mütəxəssislərimiz elmi-nəzəri biliklərini kitabçılıq təcrübəsinə tətbiq etmək, azad bazar münasibətlərində özünü sınamaq və yüksək tirajlı kitab nəşrini həyata keçirmək sahəsində geniş fəaliyyət göstərirlər. Bir sıra mütəxəssislərimizin nəşr etdirdiyi on minlərlə nüsxə kitab rusdilli məkanda yayılır və kitabçılıq işində elmi yanaşmanın uğurunu ifadə edirdi. 2000-ci illərdə dos. P.Kazimi elmi tərcümələrlə məşğul olur. Samuel Kramerin "Tarix şumerdən başlanır" (Kramer, 2009) kitabını və akademik Maksakovskinin "Dünyanın coğrafi mənzərəsi" adlı kitabını azərbaycan dilinə tərcümə edərək çap etdirir (Kazimi, 2025). Eyni zamanda "Azərbaycan-Rus və Rus-Azərbaycan universal lüğəti" (Kazimi & Nasretdinov, 2010) üzərində işləyir. Lüğətin ərsəyə gəlməsinə xeyli zaman sərf olunur, nəhayət 2002, 2004 və 2006-cı illərdə kitabın üç müxtəlif nəşri Bakı şəhərində işıq üzü görür. 2008-2009-cu illərdə "Azərbaycan-Rus və Rus-Azərbaycan universal lüğəti" Moskva şəhərinin "Tolmaç" (Kazimi & Nasretdinov, 2010) nəşriyyatında iki dəfə çap olunur. Dos.P.Kazimi informasiya mühəndisliyi konsepsiyası ilə məşğul olmasını belə izah edir: "1990-cı illərin sonları idi, professor Abuzər Xələfovla "Kitabxanaşünaslığa giriş" fənninin tədris proqramı ilə əlaqədar geniş müzakirələr aparırdıq. Müzakirə zamanı professor A. Xələfov İ. Yüzvişinin "İnformasiyalogiya" kitabını mənə verib dedi ki, bu çox qiymətli kitabdır, oxu – harada səhv etdiyini anlayacaqsan. Beləliklə, mənim informasiya mühəndisliyi (Kazym, 2011) konsepsiyası ilə bağlı fikirlərim meydana gəldi".

## 1. Problemin Təqdimatı

2011-ci ildə BDU-nun dosenti P.Kaziminin "İnformasiya mühəndisliyi kitabxana-informasiya fəaliyyətində" adlı monoqrafiyası və ardınca bu istiqamətdə silsilə məqalələri çap olundu (Kazii, 2014; Kazimi, 2017). Məqalələrdə elmi informasiyanın dövriyyəsi (Kazımi, 2017) informasiyaya əlçatarlıq məsələləri (Kazimi, Oqlu & Qizi, 2022) yeni texnologiyaların tətbiqi ilə yeni informasiya mühitinin formalaşması problemi və informasiyanın qiymətləndirilməsi (Kazimi, Abdullayeva & Ismayilov, 2020) üsulları kimi mühüm məsələlər öz əksini tapırdı. Məhz bu tədqiqatların nəticəsində alim Amerika Mühəndislər Assosiasiyasına üzv olunması üçün dəvət olundu (IEEE).

Alimin irəli sürdüyü "İnformasiya mühəndisliyi kitabxana-informasiya fəaliyyətində" əsəri mütəxəssislərin diqqətini cəlb etdi (Kumar, 2007). Bu konsepsiya İnformasiya mühəndisliyinin on

alt sistemini irəli sürürdü. Bu alt sistemlər içərisində diqqəti cəlb edən İnformasiya nəzəriyyəsinə yeni yanaşma üsulu oldu. Tədqiqatçı bu istiqamətdə rus alimi Yuzvişinin "İnformasialogiya" nəzəriyyəsini əsas olaraq qəbul edirdi.

Eləcə də tədqiqatçılarımız, müasir informasiyalaşma şəraitində informasiya mühitinin yaradılması alqoritmini müəyyənləşdirir və informasiya mühitini aşağıdakı kimi şərh edir: "İnformasiya mühiti, insanların məlumat əldə etmə, paylaşma və istifadə etməsi yollarını müəyyənləşdirən və ona təsir edən bir ekosistemdir. Bu mühit, texnologiyanın, media kanallarının müxtəlif formaları, sosial şəbəkələr, rəqəmsal platformalar, məlumat mənbələri və bu mənbələrin istifadəçiləri arasında qarşılıqlı faydalı əlaqələrdən ibarətdir. İnfomasiya mühiti, insanların düşüncə tərzini, qərar qəbul etmə proseslərini və cəmiyyətin ümumi mədəniyyətini formalaşdıran mühüm vasitədir. İnformasiya kanallarının və informasiya məhsullarının mötəbərliyi əsas diqqət mərkəzindədir. İnformasiya mühitinin yaradılması üsulları olaraq bir neçə əsas istiqamətlər sistemli olaraq göstərilir:-Texnologiya və infrastrukturun yaradılması, kontentin yaradılması və paylaşılması, əlaqə və əməkdaşlıq imkanlarının yaradılması, təhsil və maarifləndirmə funksiyasının tətbiqi. İnformasiya mühitinin formalaşması sahəsində, insanların məlumatı əldə etmə, paylaşma və istifadə etmə tərzi dəyişərək cəmiyyətin inkişafına və mədəniyyətinə təsir göstərir. Odur ki, bu prosesin uğurlu olması üçün texnologiya, məzmun, əlaqə və təhsil kimi müxtəlif sahələrin birgə nəzərə alınması vacibdir. Fasiləsiz təhsil və ömürboyu təhsil prosesində informasiya mühitinin yaradılmasının əhəmiyyəti geniş araşdırmaya məruz qalır. Fasiləsiz təhsil, insanların həyat boyu bilik və bacarıqlarını inkişaf etdirmək üçün davamlı təhsil fəaliyyətlərinə qatılması imkanlarının yaradılması deməkdir. İnformasiya mühitinin yaradılması bu prosesi daha səmərəli və effektli edir. Bunun üçün, məlumatın asan əldə edilməsi, təhsilə fərdi informasiya xidməti imkanlarının yaradılması, İnteraktiv təhsil və əks əlaqə imkanları, əlçatanlıq və inklüzivlik, təhsilin yenilənməsi prosesində innovasiyaların tətbiqi, əməkdaşlıq və şəbəkələşmənin təmin edilməsi, toplanan məlumatın təhlili və fəaliyyətin qiymətləndirilməsi kimi istiqamətlər göstərilir. Fasiləsiz təhsil və ömürboyu təhsil prosesində informasiya mühitinin yaradılması, insanların bilik və bacarıqlarını inkişaf etdirmək üçün legitim imkan yaradır. Bu mühit, təhsilin hər yaşda və hər yerdə davamlı olmasını təmin edərək, cəmiyyətin inkişafına və fərdlərin şəxsi və peşəkar həyatda uğur qazanmasına xidmət edir. Təhsil və fasiləsiz təhsil zamanı informasiya mühitinin yaradılmasının forma və üsulları müxtəlif və çoxşaxəlidir. Bu formalar və üsullar, təhsil prosesini daha effektiv və əlçatan etmək məqsədilə müxtəlif texnologiyalardan və metodlardan istifadə edir.

Araşdırmalarda fasiləsiz təhsil zamanı informasiya mühitinin yaradılmasının bəzi əsas formaları və üsulları göstərilir.

Konsepsiyanın əsas strukturundan irəli gələn istiqamətlərdə müəllif yeni araşdırmalar aparmağa başlayır və gənclərin sosial şəbəkələrdə keçirdiyi zaman (Kazimi & Guliyeva, 2023) haqqında, sosial şəbəkələrdə maraqlar konflikti (Kazimi, 2021) haqqında, informasiyanın mötəbərliyi (Kazimi & Guliyeva, 2022) haqqında, oxucu və istehlakçı məmnuniyyəti (Oqlu & Qurbanov, 2021) problemləri ilə əlaqədar araşdırmalar apardı. 2020-2023-cü illərdə tədqiqatçılarımız yeni istiqamətlər müəyyənləşdirirlər. Tədqiqatlarda "kitabxana-informasiya fəaliyyətində demokratiklik" (Kazimi, 2021; Kazymi, 2011) informasiya xidmətində senzura və məhdudiyyətlər (Kazimi & Aliyeva, 2019) oxucu-istehlakçı məmnuniyyəti (Kazimi & Gurbanov, 2022) kitabxana-informasiya fəaliyyətinin dinamik inkişafı (Oqlu, 2021) informasiyanın mötəbərliyi (Kazimi & Guliyeva, 2022) informasiya xidmətində maraqlar konflikti (Kazimi, 2021) kimi mühüm mövzulara müraciət edilir. "Amerika Mühəndislər Assosiasiyası" Elektrik və Elektronika Mühəndisləri İnstitutunun (IEEE) hər il keçirdiyi nüfuzlu beynəlxalq elmi konfranslara dəvət olunan dosent P. Kazimi tanınmış alimlərlə birlikdə 2020-ci ildə "Kitabxanaların layihə və innovasiya fəaliyyəti" (Bilovus, Mudrokha, Pavliuk & Kazimi, 2020) həmin ildə "Mədəni İrsin Biobiblioqrafik sənədli məlumat bazası" (Kunanets, Filippova, Dobrovolska & Kazimi, 2020). 2021-ci ildə "Ali təhsil sahəsində layihə fəaliyyətlərinin məlumat və terminoloji anlayışları" (Krokhmalny, Krokhmalna, Krokhmalnyi & Kazimi, 2021). "Qlobal İnformasiya Şəbəkəsi və Maraqların Toqquşması (Tərəflər, Maraqlar və Münaqişələr)" (Kazimi, 2021). 2022-ci ildə "İntellektual Sistem Ailə Həkimi: Layihə yanaşması" (Helyi, Kunanets, Rzheuskyi, Sihaiov & Kazym, 2022). 2023-cü ildə "Gənclərin Qlobal İnformasiya Məkanında sərf etdikləri zaman (Mütaliyə və ya İnformasiya Ehtiyacının Təminatı Problemləri)" (Kazimi & Guliyeva, 2023) mövzularında konfranslarda çıxışlar edir, elmi məqalələri Scopus məlumat bazasında indeksləşən jurnallarda çap olunur. Dosent Kazimi "Türk dövlətlərində kitab və kitabxana mədəniyyəti" mövzusunda doktorluq dissertasiyasını bitirmiş və müdafiəyə təqdim etmişdir. Tədqiqatçı dünya türkləri, onların kitab, kitabxana, mütaliə mədəniyyəti və informasiya təminatı mövzularında 60-dan artıq elmi məqalə çap etdirib.

Dərslik və dərs vəsaitləri üzərində intensiv işləyən dos. Kazimi 2012-ci ildə dos. Qurbanov və dos. Məmmədovla birlikdə "Kitabxana-informasiya fəaliyyətinin menecmenti və marketinqi" (Qurbanov, Kazımi, Məmmədov, 2012) adlı tədris vəsaitini magistratura pilləsi üçün çap etdirdi.

Həmin ildə dosent Pərviz Kazimi dos. Qurbanov və fəlsəfə doktoru N.İsmayılova ilə birlikdə "Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı" adlı dərs vəsaitini hazırlayıb çap etdirdi (Qurbanov, Kazımi, İsmayılova, 2012). 2019-cu ildə "Kitabxana-informasiya sistemləri" (Kazimi, Gurbanov & Guliyev, 2019). 2020-ci ildə dosent A.Qurbanov və fəlsəfə doktoru O.Quliyevlə birlikdə "Kitabxanalarda informasiya texnologiyaları" (Qurbanov, Kazimi, Quliyev, 2020) adlı dərs vəsaitini hazırladı və Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası ilə əməkdaşlıq əsasında çap etdirdi.

"Türk dünyası milli kitabxanaları" (Xalafov, 2016) monoqrafiyası 2016-cı ildə çap edildi. Bu kitab professor Xələfovun dos. Pərviz Kazimi ilə birgə hazırladığı və böyük enerji sərf edərək yazıb miras qoyduğu sonuncu kitab oldu. 2020-ci ildə Azərbaycanın Əməkdar Elm xadimi, professor, "Şərəf" və "Şöhrət" ordenli Abuzər Xələfov dünyasını dəyişdi. Alim öz xalqına kitablarını və bu illər ərzində yetişdirdiyi tələbələri ilə elmi məktəbini miras qoydu (Khalafova, 2024). Dos. Pərviz Kazimi həmin elmi məktəbi bu gün uğurla davam etdirənlərin cərgəsində ön sırada dayananlardandır.

**Nəticə**

Göründüyü kimi, müasir informasiya proseslərinin geniş palitrası Azərbaycan mütəxəssisləri tərəfindən öyrənilir və mütəmadi beynəlxalq sahə konfranslarında təqdim edilir. Tədqiqatçılarımızın "İnformasiya mühəndisliyi" mövzusunda araşdırmaları davam etməkdədir. 2022-ci ilin yekunlarına görə Bakı Dövlət Universitetində humanitar və ictimai elmlər üzrə "İlin alimi" adına BDU-nun tanınmış alimi, dos. N. İsmayılov (Kazimi, Abdullayeva & Ismayilov, 2020). 2023-cü ildə dos. Pərviz Kazimi layiq görüldü (Agamirzayev & Kazimi, 2023). Bu nəticələr İnformasiya-sənəd menecmenti fakultəsinin multidistiplinar universitetdə əldə etdiyi böyük uğur hesab edilir. Bu gün, Bakı Dövlət Universitetinin İnformasiya-sənəd menecmenti fakültəsinin aparıcı alimləri akademik reytinqinə görə H indeksi və elmi isnadlarına görə qabaqcıl yerlərdən birini tuturlar. Elmi kirabxanaların bibliometrik və elmmetrik təhlillərlə məşğul olması sahəsində metofiki tövsiyələr hazırlanır və təlimlər keçirirlər. Müasir kitabxana-informasiya fəaliyyətinin elmi kitabxanalarda, Ali məktəb kitabxanalarında ifadə olunan spesifikası tədqiqatların diqqət mərkəzindədir (Rzayeva & Balayeva, 2024). Müasir kitabxana-informasiya fəaliyyətinə yeni texnologiyaların öyrənilməsi və tətbiqi tədqiqatçılarımızın diqqət mərkəzindədir. Bibliometrik və elmmetrik (Aliyeva & Kazimi, 2022) tədqiqatların aktuallığı ilə informasiya mühəndisliyi yenidən gündəmə gəlir və yeni-yeni alt sahələri (Kazimi & Aliyeva, 2019) müzakirə obyektinə çevrilir.

Yaxın zamanlarda tədqiqatçılarımızın "informasiya mühəndisliyi" konsepsiyasının yeni nəşri çapa hazırlanır və bu monoqrafiya da sahə mütəxəssislərinin marağına səbəb olacaqdır.

## References

Agamirzayev, A. ., i Kazimi, P. F. (2023). Razmeshcheno v Mogikan» Sovetskiy Soyuz. pamyati professora A.A. Khalafova). *Informatsiya o tekhnologiyakh*, (12), 124-134.

Aliyeva, S. A., & Kazimi, P. F. O. (2022). Scientometrics analysis of the academic activities of the Azerbaijan State University of Culture and Arts in 2021-2023 (Some specific features of the activity). *Technium Soc. Sci. J.*, *35*, 224.

Bilovus, H., Mudrokha, V., Pavliuk, K., & Kazimi, P. (2020). Project and Innovation Activity of Libraries. In *ITPM* (pp. 58-70).

Helyi, A., Kunanets, N., Rzheuskyi, A., Sihaiov, A., & Kazym, P. (2022). Intelligent System" Family Doctor": Project Approach. In *ITPM* (pp. 196-205).

Kazii, P. (2014). Information Engineering: What's This?. *International Journal of Academic Research*, *6*(3).

Kazimi, P. F. (2011). *Information engineering in library activity. B. BSU.*

Kazimi, P. F. (2021). Conflict of relevance and reliability of information and the global network. *Trends in Humanities and Social Sciences*, *1*(1), 1-2.

Kazimi, P. F. O. (2021). Democratic countries and ways of influencing the nature of information. *Technium Soc. Sci. J.*, *22*, 847.

Kazimi, P. F. O. (2025). Dynamics of Science Development in Azerbaijan 2023-2024 (Primary Scientometric Analysis). *Journal of Management World*, *2025*(1), 255-257.

Kazimi, P. F. O., & Guliyeva, N. A. G. (2022). The concept of reliable information on the global network in times of crisis. *Technium Soc. Sci. J.*, *30*, 742.

Kazimi, P. F. O., & Guliyeva, N. A. G. (2023). " Time" spent in youth's "global information space"(problems of satisfaction of reading or information need). *Procedia Computer Science*, *219*, 720-723.

Kazimi, P. F., & Gurbanov, A. I. (2022). Today's factors of user satisfaction with library services and their quality. *Scientific and Technical Libraries*, (2), 109-122.

Kazimi, P., & Aliyeva, A. (2019). Evaluation criteria of censorship and limitation in library and information activity. *Historical sciences*, *17*, 65-72.

Kazimi, P., Abdullayeva, A., & Ismayilov, N. (2020). Scientometric analysis of document flow in library science of azerbaijan (2014-2018). *Norwegian journal of development of the international science*, (45-2), 66-70.

Kazimi, P., Gurbanov, A., & Guliyev, O. (2019). Library information systems. *RS polygraph*.

Kazym, s. F. (2011). *Informatsionnyye tekhnologii*. Izd-vo Bakinskogo gos. un-ta.

Khalafova, S. (2024). innovative approaches in the activities of" information and document management. *Norwegian Journal of development of the International Science No, 136*, 34.

Kumar, K. (2007). *Library management in electronic environment*. Har-Anand Publications.

Kramer, S. (2009). *Tarix Şumerdən başlayır.*.(tərcümə edəni P.Kazimi) Bakı. (Müəll. Kramer Samuel Noah).

Krokhmalny, R., Krokhmalna, H., Krokhmalnyi, D., & Kazimi, P. (2021). Information and Terminological Concepts of Project Actions in Higher Education Domain. (381-390). In *ITPM*.

Kunanets, N., Filippova, N., Dobrovolska, V., & Kazimi, P. (2020, September). Biobibliographic data repository of documentary cultural heritage. In *2020 IEEE 15th International Conference on Computer Sciences and Information Technologies (CSIT)* (Vol. 2, pp. 221-225). IEEE.

Oqlu, K. (2021). Dynamic development of information technologies, organization of library services using digital space and through social networks. *Asian Journal of Education and Social Studies*, *16*(4), 27-32.

Qurbanov, A., & Kazımi, P. (2012). Azerbaycan kitapşünaslığı Prof. AA Xalafovun bilimsel okulu gibi. *Ukrayna, Kiyev: EuSauo*,

Qurbanov, A., Kazımi, P., Məmmədov, M. Ə. (2012). *Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti*. Mütərcim.

Qurbanov, A., Kazimi, P., Quliyev, O. (2020*). Kitabxanalarda informasiya texnologiyaları*. Mütərcim.

Rzayeva, Z., & Balayeva, E. (2024). Bilgi və Bəlgə Yönətimində “İnformasiya Mühəndisliyi” Konsepsiyası. *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(3), 1903-1910.

Xalafov, A. A. (2016). *Kazimi PF Türk dünyasi milli kitabxanalari. Mutercim*.